Təbrik edirik!

# Rahatlığımı mədəniyyətdə tapmışam



*Başlığa çıxardığımız bu fikir Ağdaş Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri, təcrübəli mədəniyyət işçisi Tahir Əliyevin etiraflarındandır.*

*Çalışdığı sahəyə ürəkdən bağlı olduğu üçün bu qədər uğur, hörmət, nüfuz qazanıb...*

Onunla yubileyi ərəfəsində görüşdük. Ağdaşa yola düşməzdən əvvəl nazirliyin ayrı-ayrı strukturlarının, idarə və şöbələrin əməkdaşları ilə söhbət etdik. Hamısının da Tahir müəllim haqqında söylədikləri eyni dərəcədə səmimi, yüksək rəylər oldu: «Heç vaxt özünü yüksəkdən aparmayıb. Həmişə sadəliyi ilə seçilib, mehribanlığı və qayğıkeşliyi ilə fərqlənib.

Bütövlükdə onda diqqət çəkən keyfiyyətlər kifayət qədərdir. Ayırd etmək olmur ki, hansı xüsusiyyəti daha üstündür. Sadə olduğu qədər təvazökar, təvazökar olduğu qədər zəhmətkeş, zəhmətkeş olduğu qədər təşəbbüskar, təşəbbüskar olduğu qədər mübariz, mubariz olduğu qədər məsuliyyətli, məsuliyyətli olduğu qədər qətiyyətli, qətiyyətli olduğu qədər təmiz, təmiz olduğu qədər dostcanlı, mehriban, savadlı, ailəsinə, işinə bağlıdır...»

İndi bu sətirləri yazarkən qeyri-ixtiyari 2003-2004-cü illəri xatırlayıram.

Həmişə bir qayda olaraq nazirliyin göstərişlərini vaxtında və yüksək keyfiyyətlə yerinə yetirən rayon şöbəsinin fəaliyyətində bir durğunluq yaranmışdı. Adam inana bilmirdi ki, bu, dünənədək bütün göstəriciləri ilə Respublikanın bütün idarə və şöbələrindən fərqlənən Ağdaşdır.

Səbəb?! Səbəb aydın idi. Tahir müəllim yerində deyildi. Özü istəməsə də yuxarı təşkilatların təkid və xahişi ilə Rayon İcra Hakimiyyəti başçısının birinci müavini vəzifəsinə təyinat almalı olmuşdu. Təbii ki, orada da T.Əliyev öz işini lazımı səviyyədə qura bilmişdi. Biz, mədəniyyət işçiləri isə düz il yarım bu sadə və xeyirxah insanın yerini çəkmişdik: «Ay Tahir müəlllim, haradasan? Şöbədə yaman yerin görünür...»

O günləri xatırlayaraq Tahir müəllim gülümsünür: Doğrusu, sizlər üçün mən özüm də qəribsəmişdim. Mənim heç zaman hec bir yüksək vəzifədə gözüm olmayıb. Amma yəqin bu da taleyin bir işidir. 1993-cü ildə də mən mədəniyyətdən ayrı düşəsi olmuşdum. Məni yekdilliklə Ağdaş Rayon İcra Hakimiyyətinin başçısı seçmişdilər. Elə onda da, indi də öz xahişimlə şöbəyə qayıtdım. Nə danım, mənim mədəniyyətdən başqa heç kəsim yoxdur. Əslində mədəniyyətdən çətin, məsuliyyətli sahə yoxdur. Bununla belə, adam öz peşəsini sevəndə rahatlığını onda tapır...»

T.Əliyevi əksəriyyət şöbə müdirlərindən fərqləndirən cəhət odur ki, görəcəyi işə son dərəcə diqqət və məsuliyyətlə yanaşır. Həyata keçirilən heç bir tədbirə barmaqarası yanaşmır. Onların hər biri üçün narahatlıq hissi keçirir. Təbii ki, bu da səbəbsiz deyil. İstəmir ki, çəkilən zəhmət, yaşanan ümid, göstərilən etimad faydasız olsun. Bir halda ki əl qatırsan hər şey yüksək səviyyədə, zövqoxşayan olmalıdır.

Onun həyat devizi belədir: «Şəxsiyyətinə hörmət edən kəsin gördüyü işlərin hamısı gözəl, əməli saleh olmalıdır».

Özü kimi sadə tərcümeyi-halı var. 1947- ci










il iyunun 2-də müəllim ailəsində anadan olub. A.Zeynallı adına musiqi məktəbini (Adil Gərayın sinfini) bitirib. 1974-cü ildən Qəbələ uşaq musiqi məktəbinin direktoru, eyni vaxtda şöbə müdiri vəzifələrində çalışıb. Ali təhsil alıb. 1987-ci ildən Ağdaş Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiridir.

Kifayət qədər yetirməsi var. Hamısı da adlı-sanlı, elinə-obasını başucalığı, nüfuz gətirən. Hazırda rayonda fəaliyyət göstərən mədəni-maarif müəssisələrinin əksəriyyəti məhz onun bilavasitə təşəbbüsü və rəhbərliyi ilə dirçəliş tapıb.

Tahir müəllim dövlətini ürəkdən sevən, bütün fəaliyyətini bu istiqamətdə quran, yorulmaq bilmədən Ulu öndərimizin, onun layiqli davamçısı İlham Əliyevin siyasətini bölgədə layiqincə təbliğ və təqdir edən ziyalılarımızdandır. Övladlarını da bu ruhda tərbiyə edib. Nəvələrinin də bu yolu tutacaqlarına şübhə yoxdur.

Bu günlər 60 yaşı tamam olan Tahir müəllim hələ də nazirliyimizin Şamaxıda keçirdiyi səyyar kollegiya iclasının təsiri altındadır.

- Möhtərəm nazirimiz Əbülfəs Qarayevə öz dərin təşəkkürümüzü bildiririk. Fəaliyyətim dövründə çox toplantılar görmüşəm. Amma beləsi olmayıb. Rayon icra hakimiyyəti başçılarının tədbirə qatılmaları kollegiyanın əhəmiyyət və təsirini daha da artırdı. Fəaliyyətimizi bu istiqamətdə davam etdirəcək, nazirliyin göstərişlərini layiqincə yerinə yetirəcək, mədəniyyətimizin təbliği və inkişafı üçün bütün qüvvələrimizdən maksimum yararlanacağıq.

TURAL

*P.S. Tahir müəllimi yaradıcı kollektivimiz və çoxsaylı oxucularımız adından yubileyi münasibətilə ürəkdən təbrik edir, ona uzun ömür, cansağlığı, gərəkli fəaliyyətində yeni-yeni uğurlar diləyirik.*